USAID FROM THE AMERICAN PEOPLE

G-PRIED Georgia Primary Education Project
საქართველოს დაწყებითი განათლების პროექტი

Məktəb bazasında müəllimləri qiymətləndirmə sistemi

Məktəb direktorları üçün bələdçi

USAID FROM THE AMERICAN PEOPLE G-PRIED Georgia Primary Education Project საქართველოს დაწყებითი განათლების პროექტი

Məktəb bazasında müəllimləri qiymətləndirmə sistemi

Məktəb direktorları üçün bələdçi

Tbilisi

2015

Bu materialın hazırlanması Amerika xalqının xeyirxah niyyəti və ABŞ İnkişaf Agentliyinin dəstəyi ilə mümkün olubdur. Materialın məzmununa dair məsuliyyəti onun tərtibçisi daşıyır və o, ABŞ İnkişaf Agentliyinin düşüncəsi deyildir. Bu material Beynəlxalq İnkişaf Agentliyi tərəfindən Gürcüstan Təhsil və Elm nazirliyi ilə birgə İbtidai Tədris layihəsi çərçivəsində hazırlanmışdır.

Mündəricat

Fəsil 1. Müəllimlərin qiymətləndirilməsi sisteminin əhəmiyyəti və məqsədi 3

1.1. Müəllimin qiymətləndirilməsi nə üçün əhəmiyyətlidir? 3

1.2. Müəllimin qiymətləndirilməsi sisteminin əsas prinsipləri 4

1.3. Müəllimin peşə standartı və gözlənilənlər 5

1.4. Müəllimin qiymətləndirilməsi rubrikası 6

Fəsil 2. Müəllimlərin qiymətləndirilməsi prosesinin əsas mərhələləri 8

2.1. Qiymətləndirmə prosesinin əsas mərhələlərinin icmalı 8

2.2. Oriyentasiya 8

2.3. Planlaşdırma və məqsədlərin işlənməsi 9

2.4. Müşahidə və məlumatların toplanması 9

2.5. Müəllimin özünü qiymətləndirməsi 10

2.6. İllik qiymətləndirmə 10

2.7. Qiymətləndirənin və müəllimin vəzifələri 11

Fəsil 3. Məlumatların toplanması strategiyaları və alətləri 13

3.1. Əsas strtegiyaların icmalı 13

3.2. Dərsin müşahidəsi və əks əlaqə 13

3.3. Müəllimlərin tədris qruplarında və başqa peşə mühitində müşahidəsi 16

3.4. Müəllimin portfolyosunun analizi 17

Əlavələr 19

Əlavə 1. Müəllimlərin qiymətləndirilməsi rubrikası 19

Əlavə 2. Meəllimin refleksiyasına dair sorğu vərəqəsi 34

Əlavə 3. Peşəkar planlaşdırmanı və məqsədlərin işlənməsini təsvir edən protokolun forması 38

Əlavə 4. Müəllimin özünüqiymətləndirmə forması 39

Əlavə 5. Müəllimin illik qiymətləndirilməsinin forması 41

Əlavə 6. Oxunun tədrisi: Dərsin müşahidə forması (I sinif) 44

Əlavə 7. Oxunun tədrisi: Dərsin müşahidə forması (II -VI sinif) 48

Əlavə 8. Riyaziyyatın konstruktivistik-diferensiasiyalı tədrisi: 52

Müşahidə forması (I -VI siniflər) 52

Əlavə 9. Dərsi müşahidə etmənin ümumi forması 57

Əlavə 10. Dərsi müşahidə etmənin ümumi forması- əlavə suallı 61

İstifadə olunmuş ədəbiyyat 63

Fəsil 1. Müəllimlərin qiymətləndirilməsi sisteminin əhəmiyyəti və məqsədi

1.1. Müəllimin qiymətləndirilməsi nə üçün əhəmiyyətlidir?

Təhsil sistemində aparılmış çoxlu sayda tədqiqatlar göstərir ki,şagirdlərin nailiyyətlərinə ən çox təsir göstərən müəllimdir.Müəllim tərəfindən idarə olunan tədris prosesinin və təhsil və inkişafın imkanları şagirdin gələcək həyat trayektoriyasının istiqamətinə əhəmiyyətli dərəcədə təsir edir. Vacibdir ki , hər bir şagirdinin potensialının mükəmməl gerçəkləşdirilməsi üçün müəllimin də şagirdləri kimi hər gün inkişaf etməsi zəruridir. Bu isə, öz növbəsində,müəllimin şəxsi praktiki fəaliyyətinə münasibətini,onun fəaliyyətinin monitorinqini və konstruktiv əks-əlaqəni nəzərdə tutur.

Müəllimlərin qiymətləndirilməsi sisteminin başlıca məqsədi müəllimlərin kəsilməz inkişaf etməsi və peşəkarlığın artırılması yolu ilə şagirdlərin nailiyyətlərinin yüksəldilməsidir.Fasiləsiz inkişaf və peşəkarlığın artırılması müəllimin fəaliyyətinin monitorinqini,analizini,göstəricilərə əsaslanan və təfərrüatlı-hərtərəfli əks-əlaqənin verilməsini nəzərdə tutur.

Müəllimlərin qiymətləndirilməsi sistemi məktəbin və tədrisin keyfiyyətinin idarə edilməsinin ən əhəmiyyətli elementidir,çünki,o, :

- Məktəbdə tədrisin və təhsilin keyfiyyətinə və nailiyyətlərə istiqamətlənmiş mühitin yaranmasına;
- Müəllimləri onların fəaliyyətləri haqqında gözlənilən nəticələrlə tanış etməkdir;
- Məktəbdə şagirdlərə yönəlmiş tədris prosesinin yaradılmasıdır;
- Müəllimlərin hesabat vermə öhtəliyinə,sinif otağında şəxsi fəaliyyətinə və şagirdlərin nəticələrinə cavabdehliyin artmasına səbəb olur ;
- Müəllimlərin peşəkar inkişafı tələbatlarının aşkar edilməsinə səbəb olur;
- Qiymətləndirən\ qiymətləndirənlər və müəllimlər tərəfindən şagirdlərin nəticələrinin və müəllimin praktikasına cavabdehliyə –məsuliyyətə şərik olmasına səbəb olur.

Müəllimlərin qiymətləndirilməsi sisteminin ən başlıca benefisi-nailiyyəti şagirddir,çünki, o,nəticədə daha effektiv tədris mühiti və daha yaxşılaşmış akademik nəticələr əldə edəcəkdir. Qeyd edilən sistemin həm müəllimlərə,həm də məktəb direktorlarına əhəmiyyətli faydası olacaqdır.

Cədvəl 1. Müəllimlərin qiymətləndirilməsi sisteminin əhəmiyyəti

Müəllimlər üçün fayda	Məktəb direktorları üçün fayda
Şəxsi fəaliyyəti haqqında effektiv,müntəzəm və konstruktiv əks-əlaqə;	Məktəbin inkişafının və keyfiyyətin idarə edilməsinin effektiv mexanizmi;
Şəxsi praktiki fəaliyyəti haqqında müntəzəm refleksiya ;	Təlim-tədris haqqında obyektiv informasiyanın əldə edilməsi;
Peşəkar inkişaf prosesinə administrasiya tərəfindən tərəfkeşlik;	Keyfiyyətə və şagirdlərin nailiyyətlərinə yönəlmiş görüşün tanınması və məktəb ictimaiyyəti arasında təsis edilməsi;
Administrasiya və həmkarlarla-müəllimlərlə əməkdaşlıq və peşəkar dialoq;	Məlumatlandırılmlğış ,şagirdlərin maraqlarına oriyentasiya olmuş və sübut edilmiş qərarların qəbul edilməsi imkanı;
Yüksəlmiş peşəkar məmnuniyyət;	
Yüksəlmiş motivasiya ;	Peşəkar inkişaf və təlim-tədris haqqında ekspertizanın dərinləşdirilməsi;
Administrasiya tərəfdən peşəkar nailiyyətlətin tanınması.	Müəllimlər tərəfindən yüksəlmiş hesabat vermə öhtəliyi.

1.2. Müəllimin qiymətləndirilməsi sisteminin əsas prinsipləri

Müəllimlərin qiymətləndirilməsi sistemi pedaqoqların effekliliyinin artırılmasının ən əhəmiyyətli mexanizmlərdən birini təşkil edir. Hərçənd,onun qeyri-düzgün həyata keçirilməsi zamanı onun varlığı arzuolunmaz nəticələr ortaya çıxara bilər və təlim –tədris prosesinə zərər verə bilər.

Aşağıda müəllimlərin qiymətləndirilməsi sisteminin effektivliliyi prinsiplərini təqdim edirik:

- **Standart**: Müəllimlərin qiymətləndirilməsi sistemi gərək müəllimin peşəkar standartına əsaslanmalıdır və peşəkarlaşmanın müxtəlif səviyyələrində olan müəllimlərin identifikasiyasına və qiymətləndirilməsinə imkan verməlidir:müəllim barəsində nə kimi gözləntilərimiz vardır?Müəllim nə etməlidi və nə etməyi bacarmalıdır?

- **Göstəricilər-indikatorlar :** Müəllimlərin qiymətləndirilməsi sistemi aydın müəyyənləşdirilmiş göstəricilərə,yəni indikatorlara əsaslanmalıdır: müəllim peşəkar fəaliyyətinin hər bir istiqamətində konkret olaraq nə edir?

- **Şagirdə oriyentasiya –yönəlik:Müəllimin** qiymətləndirilməsi zamanı pedaqoqun fəaliyyəti ilə birlikdə müşahidənin fokusunu şagird təşkil edir. Müəllim

effektliliyinin qiymətləndirilməsi zamanı qiymətləndiricinin müəllimin davranışlarına şagirdlərin necə reaksiya vermələrinə diqqət yetirilməsi çox əhəmiyyətlidir: müəllimin bu və ya digər davranışları nəticəsində\cavab olaraq şagirdlər nə edirlər?

- **Metodiki kompotentlik-bacarıq:** Qiymətləndirici tədris və qiymətləndirmə sahəsində kifayyət qədər kompotentli olmalıdır.O,həmçinin, qiymətləndirmə sisteminə və prosedurlara dair hərtərəfli biliyə malik olmalıdır.Bunlarla yanaşı,o,həmçinin müəllimə necə pozitiv və konstruktiv əks-əlaqə verməyi və onun peşəkar inkişafına yardım etməyi bacarmalıdır. Müəllimin qiymətləndirilməcinə cavabdeh olan şəxs,məktəbin direktoru,qiymətləndirmə üçün əhəmiyyətli olan bütün istiqamətlərində kifayyət qədər kompotensiyalara malik deyildirsə, o zaman prosesə həmkarlarını (direktorun müavinini,kafedra rəhbərlərini,müəllimlərin tədris qrupunun fasilitatorunu və başqalarını) qoşa bilər;

- **Əks-əlaqə:** Qiymətləndirmə prosesi müəllim üçün faydalı,layiqli əks-əlaqədən ibarət olmalıdır ,bunlar isə müəllimin məqsədləri,ehtiyacları və müvafiq peşəkar inkişafının başqa-başqa imkanları ilə əlaqədar olmalıdır. Peşəkar inkişafın imkanları həm peşəkar inkişafın formal –rəsmi tədbirlərini (treninqlər və seminarlar),həm də məktəb bazasında peşəkar inkişafın aktivliklərini və müəllimlərin əməkdaşlığını özündə cəmləşdirməlidir;

- **İştirak etmək:** Müəllimlərin qiymətləndirilməsi prosesində təcrübəli və ekspert müəllimlərin iştirak etməsi mümükdür.Onlar məktəb direktorlarına müəllimin effektiv praktikasını qiymətləndirməkdə yardım edə bilər və həmçinin,həmkarlarına əks-əlaqə çərçivəsində konkret fənn və metodik tövsiyyələr verə bilərlər.

1.3. Müəllimin peşə standartı və gözlənilənlər

Müəllimlərin peçə standartının sənədi müəllimin peşə biliklərini,bacarıq-qabiliyyətlərini və öhtəliklərini müəyyənləşdirir. Müəllimlərin peçə standartının məqsədi ümumtəhsil müəsisələrində təhsilin və tədrisin keyfiyyətinin yaxşılaşdırılmasından ibarətdir.Standart müəllimin hazırlaşmasının,peşəkar inkişafının və zirvəyə doğru yüksəlişinin əsasıdır.Uyğun olaraq,məktəb direktoru məktəb bazasında müəllimlərin qiymətləndirilməsi məqsədi ilə Gürcüstanın Təhsil və Elm nazirliyi tərəfindən təsdiq edilmiş müəllimin peşəkar inkişafı standartını tətbiq etməsi çox əhəmiyyətlidir.Aşağıda müəllimlərə dair gözləntilər təqdim edilmişdir,onlar müəllimin peşəkar standartına müvafiqdir və məktəb direktoruna müəllimin hər günlük fəaliyyətini qiymətləndirməyə imkan verirəcəkdir.

I. Tədris prosesinin planlaşdırılması : Standarta uyğun olaraq illik və tematik tədris planlarını işləyib hazırlamaqla ,müvafiq dərsləri planlaşdırmaqla və ölçülə biləcək tədris məqsədlərini müəyyənləşdirməklə müəllim hər bir şagirdin təhsilinə və inkişaf etməsinə yardım edir.

II. Sinfin idarə edilməsi : Təhlükəsiz, səliqə-sahmanlı və qarşılıqlı hörmətə əsaslanmış sinif şəraiti yaratmaqla müəllim hər bir şagirdin təhsilinə və inkişaf etməsinə yardım edir.

III. Təhsil: Yüksək gözləntilərə əsaslanan ,hər bir şagirdin dərsə cəlb edilməsinin qayğısına qalmaqla və şagirdlərin müxtəlif tələbatlarını,maraqlarını və məqsədlərini nəzərə almaqla müəllim hər bir şagirdin təhsilinə və inkişaf etməsinə yardım edir.

IV.Qiymətləndirmə: (a) standartın müvafiq qiymətləndirmə alətini yaratmaq və sistemləşdirməklə; (b) şagirdlərin nəticələrini analiz edilməsi və bu məlumatlardan tədrisin yaxşılaşdırılması məqsədi ilə istifadə etməklə ; (c)şagirdlər üçün əhəmiyyətli əks-əlaqə yaratmaqla müəllim hər bir şagirdin təhsilinə və inkişaf etməsinə yardım edir.

V. .Ailə və ictimaiyyətlə əməkdaşlıq: Müəllim valideynlərlə və ictimaiyyətlə effektiv əməkdaşlıq etməklə hər bir şagirdin təhsilinə və inkişaf etməsinə yardım edir.

VI.Peşəkar davranış: Etik,mədəniyyətcə hərtərəfli inkişaf etmiş və peşəkar əməkdaşlıq praktikası ilə müəllim hər bir şagirdin təhsilinə və inkişaf etməsinə yardım edir.

1.4. Müəllimin qiymətləndirilməsi rubrikası

Gürcüstanın İbtidai Təhsil layihəsi çərçivəsində müəllimin effektivliyinin keyfiyyəti onun fəaliyyətini qiymətləndirməklə müəyyən ediləcəkdir. Verilmiş mərhələdə şagirdlərin nəticələri , yaxud şagirdlərin akademik inkişaf göstəricisi qiymətləndirmənin ayrıca bir komponenti kimi fərqləndirilmir.Hərçənd ,aşağıda verildiyi kimi,müəllimin fəaliyyətinin qiymətləndirilməsi zamanı məsləhət görülür ki,qiymətləndirici şagirdlərin işlərini və onların nəticələrini nəzərə alsın və analiz etsin.

Müəllimin qiymətləndirilməsi rubrikası müəllimin peşəkar standartına əsaslanır və nəyin qiymətləndirilməsi haqqında konkret informasiya verir.Orada müəllimin praktikası müxtəlif istiqamətlərdə peşəkarlığın müxtəlif səviyyəsinə müvafiq olaraq yazılmışdır.Rubrikada yazılmış peşəkar praktika ,yəni indikatorlar müəllimin gündəlik fəaliyyətində məktəbdə və sinif otağında həyata keçirdiyi fəallıqlardan ibarətdir . Müəllimin fəaliyyətinin keyfiyyəti hər bir istiqamət üzrə onun peşəkarlığına və məharətinin səviyyəsinə bağlıdır,rubrikada müəllimin hazırlığının dörd səviyyəsi təqdim edilmişdir:

(a)çox effektiv müəllim; (b) effektiv müəllim; (c)praktikasının yaxşılaşdırılmasına ehtiyacı olan müəllim;(ç)standartın tələbatını ödəməyən müəllim.

Cədvəl 2. Müəllimlərin qiymətləndirilməsi rubrikasının səviyyələri	
Qiymətləndirmə rubrikasının səviyyələri	**Təsviri**
4 – çox effektiv	Müəllim standartın hər bir tələbini xüsusilə yüksək səviyyədə yerinə yetirir .
3 - effektiv	Müəllimin fəaliyyəti müəllimin peşə standartını və gözləntiləri qane edir .Bu səviyyədə olan müəllimlər özlərinin kvalifikasiyalarından-ixtisaslarından və fəaliyyətlərindən razı ola bilərlər.
2 – yaxşılaşdırılmaya ehtiyacı olan	Müəllimin tədris praktikasının əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa ehtiyacı vardır, çünki, müəllimin peşəkar standartının minimum tələblərini ödəyə bilmir.Fəaliyyəti rubrikanın bu səviyyəsinə uyğun olan müəllimlər peşəkar inkişafın və ixtisasının yüksəldilməsi qayğısına qalmalıdır.
1 – standartın tələbatını ödəmən	Müəllimin tədris praktikası müəllimin peşəkar standartından əhəmiyyətli dərəcədə geri qalır .Buna bənzər praktika məktəb üçün qəbul edilməzdir və fəaliyyətin yaxşılaşdırılması planının birlikdə işlənib hazırlanmasına və tədris ili ərzində daimi yardıma ehtiyacı vardır.

Birinci əlavədə müəllimin peşəkar fəaliyyətinin qiymətləndirilməsi rubrikası verilmişdir. Müəllimin peşəkar fəaliyyətinin hər bir istiqamətinin müvafiq indikatorları müəllimlərin effekliliyinin müxtəlif səviyyələrinə uyğun olaraq rubrikada konkret göstərilmişdir.

Fəsil 2. Müəllimlərin qiymətləndirilməsi prosesinin əsas mərhələləri

2.1. Qiymətləndirmə prosesinin əsas mərhələlərinin icmalı

Müəllimləri qiymətləndirilməsi prosesi uzun müddətli və kompleks prosesdir.Birinci şəkildə qiymətləndirmə prosesinin zəruri olan və əhəmiyyətli mərhələləri verilmişdir.Qeyd edilən mərhələlərin mükəmməl və ardıcıllıqla keçilməsi qiymətləndirmə prosesinin effektiv həyata keçirilməsi üçün vacibdir.

Şəkil 1.Müəllimin qiymətləndirilməsi prosesinin mərhələlər

2.2. Oriyentasiya

Müəllimlərin qiymətləndirilməsi sisteminin həyata keçirilməsindən əvvəl məktəb direktorları oriyentasiya xarakterli görüş keçirməlidir və müəllimlərə aşağıdakı məlumatları çatdırmalıdırlar:

- Müəllimlərin qiymətləndirilməsinin məqsədi və başlıca prinsipləri ;
- Müəllimlərin fəaliyyətlərinə dair gözləntilər(müəllimin peşəkar standartı);
- Müəllimlərin qiymətləndirilməsinin meyarları və rubrika;
- Müəllimlərin qiymətləndirilməsinin prosedurları,strategiyaları və instrumentləri-alətləri ;
- Müəllimlərin qiymətləndirilməsinin prosesində məktəb direktorunun və müəllimlərin vəzifələri;
- Müəllimlərin qiymətləndirilməsinin prosesinin cədvəli.

Qiymətləndirmə sistemi və prosesi haqqında məlumatlarla əvvəlcədən tanış olmaq onun effektiv həyata keçirilməsinə səbəb olacaqdır.Müəllimlərin onlar tərəfindən nə gözlənildiyi və ixtisasının effektiv həyata keçirilməsinə yardım etmək üçün nə etmələri haqqında hərtərəfli məlumatları olacaqdır

2.3. Planlaşdırma və məqsədlərin işlənməsi

Ümumi təşkilatçılıq görüşlərindən sonra məktəb direktoru və müəllim fərdi olaraq bir –biri ilə görüşürlər.Qeyd olunan görüşün məqsədi qiymətləndirmə prosesi üçün hazırlıq və peşəkar fəaliyyətin yönləri haqqında razılığa gəlməkdir:

- Görüşə qədər pedaqoq müşahidə yolu ilə müəllimin peşəkarlıq standartı və qiymətləndirmə rubrikası ilə tanış olur. Onları nəzərə alaraq şəxsi praktikasına –refleksiya edir(münasibətini bildirir) ,öz fəaliyyətinin güclü və zəif tərəfərin müəyyənləşdirir; Şəxsi praktikasına refleksiya məqsədi ilə müəllim başqa-başqa alətlərdən,o cümlədən ,Müəllimlərin Peşəkar İnkişafının Milli Mərkəzi tərəfindən işlənib hazırlanmış ,,Özünü qiymətləndirmə"sorğu kitabından da(sorğu kitabını www.tpdc.ge veb səhifəsində izləyə bilərsiniz) və ikinci əlavədə verilmiş efleksiyaya sorğu bölməsindən istifadə edə bilər.

- Görüş zamanı müəllim direktorla birlikdə özünü qiymətləndirmənin nəticələrini araşdır.Direkror və müəllim birlikdə tədrisin və ümumuyyətlə, peşəkar fəaliyyətin güclü və zəif tərəflərini müzakirə edirlər,peşəkar inkişafın məqsədlərinə dair razılığa gəlirlər,yəni ,tədrisin elə aspektləri barədə ki, gələcək peşəkar fəaliyyəti zamanı müəllim onlara diqqət yetirməlidir;

- Məktəb direktoru və müəllimlər müəllimin fərdi və həmkarları ilə birlikdə iştirak edəcəyi aktivlikləri və tədbirləri müzakirə edirlər və razılığa gəlirlər.

Məsləhət görülür ki,peşəkar inkişafın planlaşdırılması və məqsədlərin işlənməsinin nəticələri yazılı formada tərtib edilsin. Üçüncü əlavədə peşəkar inkişafın planlaşdırılması və məqsədlərin işlənməsinin nəticələrini ifadə edən protokolun forması təqdim edilmişdir.

2.4. Müşahidə və məlumatların toplanması

Müəllimlərin qiymətləndirilməsi prosesinin ən çox zəhmət tələb edən mərhələsi müəllimin fəaliyyətinə müşahidə etmək və müvafiq məlumatların toplanmasıdır.Məktəb direktorunun topladığı məlumatlar əvvəlcədən işlənib hazırlanmiş rubrikaya əsasən müəllimin qiymətləndirməsinə imkanı verməlidir.Bəzi hallarda məlumatları birbaşa məktəb direktoru toplayır .Məlumatların müəyyən hissəsini isə müəllim toplamalıdır və qiymətləndirmə zamanı məktəb direktoru ilə paylaşmalıdır.Növbəti fəsildə məlumatların toplanmasının üç əhəmiyyətli strategiyası təfərrüatı ilə təsvir edilmişdir: (a)müəllimin dərsinin müşahidə edilməsi və əks-əlaqə; (b)müəllimlərin tədris qrupunda və başqa peşəkar mühitdə müəlliminlərin müşahidəsi; (c)müəllimin portfolyosunun analizi.

2.5. Müəllimin özünü qiymətləndirməsi

İlin sonunda müəllimin fəaliyyyətinin məktəb direktoru tərəfindən qiymətləndirilməsinə qədər müəllim qiymətləndirmə rubrikasını tətbiq etməklə özünün fəaliyyətini qiymətləndirir.Müəllim rubrikada verilmiş hər bir itiqaməti diqqətlə araşdırır və özünün fəaliyyətinə konkret ballar verir(dördüncü əlavədə müəllimin özünü qiymmətləndirməsi cədvəli verilmişdir).

Vacibdir ki,ilin sonunda yekunlaşdırıcı görüş zamanı və qiymətləndirmə üçün müəllim özü ilə sənədləri və işlərini yanında gətirsin,həmin sənədlər müəllimin fəaliyyətinin effekliliyini əsaslandırmaqda ona yardım edəcəkdir. Arzu olunandır ki , özünü qiymətləndirmə zamanı müəllim inkişafın o məqsədlərinə xüsusi diqqət yetirsin ki,onları dərs ilinin əvvəlində direktorla birlikdə işləmişdir.Özünü qiymətləndirmə formatında müəllim iştirak etdiyi -dərs ilinin əvvəlində qarşıya qoyduğu məqsədlər kimi nəzərdə tutuduğu - həyata keçirilən tədbirlər\aktivliklər haqqında qısa məlumat təqdim etməlidir

2.6. İllik qiymətləndirmə

Dərs ilinin sonunda məktəb direktoru müəllimin qiymətləndirilməsi üçün vacib olan bütün məlumatları toplayır və analiz edir:(a) dərslərin müşahidəsinin hesabatı; (b)peşə mühitində müəllimin müşahidəsinin qeydləri; (c)müəllimin portfolyosunda olan məlumatları.Həmçinin müəllim tərəfindən hazırlanmış özünüqiymətləndirmə hesabatı və təqdim edilmiş əlavə sənədlərlə tanış olur.Məktəb direktoru qeyd edilən məlumatları nəzərə almaqla müəllimi qiymətləndirmənin hər bir rubrikası üzrə qiymətləndirir və müvafiq ballar verir.O,həmçinin müəllimin başlıca nailiyyətlərini,peşəkar inkişaf üçün lazım olan ehtiyaclarını və müvafiq tədbirləri fərqləndirir-ayırır.

Əhəmiyyətlidir ki,müəllimlərin illik yekun hesabatını hazırlayana qədər məktəb direktoru və müəllimlərin düşüncələrinin mübadiləsi –bölüşdürülməsi və peşəkar dialoqlarının həyata keçirilməsi imkanları olsun. Bu zaman ,mümkündür ki, həm birinci həm də ikinci tərəf mövqelərini dəyişsinlər –o cümlədən,rubrika çərçivəsində verilmiş balları da.Yekun razılaşmadan sonra direktor müəllimin illik qiymətləndirilməsi hesabatını hazırlayır və onu müəllimin şəxsi işinə əlavə edir.Arzu olunandır ki, məktəb direktorunun təltif etdiyi ballardan başqa hesabatda əsas müşahidələr haqqında əldə edilmiş məlumatlar-həmin məlumatlardan məktəb direktoru müəllim haqqında məlumatlar əldə etmişdir-təqdim edilsin. Hesabatda həmçinin müəllimin başlıca nailiyyətləri,çağırışlar-məsləhətlər və növbəti dərs ilində peşəkar inkişafın vacib olması haqqında məlumatlar olmalıdır.Beşinci əlavədə müəllimin illik qiymətləndirilməsinin hesabat forması təqdim edilmişdir.

İllik qiymətləndirmə nəticəsində əldə edilmiş məlumatlar hökmən müəllimin praktikasının yaxşılaşdırılması məqsədi üçün tətbiq edilməlidir.Növbəti tədris ilinin başlanğıcında müəllim elə aktivliklər planlaşdırmalıdır ki,həmin aktivliklər ona tədrisin yaxşılaşdırılmasında yardım etsin.Müvafiq olaraq,müşahidələr və qiymətləndirmələr zamanı məktəb direktoru keçən dərs ili ərzində mözcud olmuş çətinliklərə xüsusi diqqət yetirməli və müəllimin inkişafını bu istiqamətdə qiymətləndirməlidir.

2.7. Qiymətləndirənin və müəllimin vəzifələri

Qiymətləndirmə prosesini effekriv idarə etmək üçün həm müəllimlərin,həm də qiymətləndirənin , yəni direktorun, qiymətləndirmənin bütün mərhələlərində öz vəzifələrini vaxtında və ləyaqətlə yerinə yetirmələri çox vacibdir.Aşağıda verilmiş cədvəldə hər iki tərəfin vəzifələri təqdim edilmişdir.

Cədvəl 3. Qiymətləndiricinin və müəllimin vəzifələri

Qiymətləndirici	Müəllim
Qiymətləndirmə sistemi haqqında müəllimlərə hər tərəfli məlumat ötürür : məqsədləri, ölçü meyarlarını,cədvəli və başqa əhəmiyyətli materialları.	Oriyentasiya xarakterli görüşlərdə aktiv iştirak edir və müəllimlərin qiymətləndirilməsi sistsmi haqqında məlumatlarla ətraflı tanış olur.
Müəllimin şəxsi fəaliyyəti və gələcək planları haqqındakı düşüncələri ilə tanış olur.Müəllimə praktikanın yaxşılaşdırılması yolları haqqında tövsiyyələr təklif edir .	Müəllimlərin qiymətləndirilməsi rubrikası ilə tanış olur. Onun nəzərə almaqla şəxsi fəaliyyətini analiz edir. Şəxsi fəaliyyətini güclü tərəflərini və səbəbləri ayırır. İştirak edəcəyi aktivlikləri və tədbirləri müəyyənləşdirir,bunlar ona şəxsi praktikasının yaxşılaşdırılmasında yardımçı ola biləcəkdir.Şəxsi düşüncələrini məktəb direktoru ilə bölüşdürür və lazım gəldiyi halda onun əks-əlaqəsini(fikirlərini) nəzərə alır.
Müəlimin tədris praktikası və ümumiyyətlə,peşəkar fəaliyyəti haqqında məlumatlar toplayır: dərslərdə iştirak edir ,müəllimi başqa-başqa peşəkar şəraitdə müşahidə edir,periodik olaraq müəllimin portfolyosu ilə tanış olur.Lazım gəldiyi hallarda,müvafiq fənn mütəxəssislərindən yardım alır .Müəllimin dərsində iştirak edərkən və başqa məsələlərlə haqqında olan məlumatları dürüst yürinə yetirir.	Müəllimin qiymətləndirilməsi rubrikası haqqında müvafiq məlumatları toplayır və şəxsi portfolyosuna yerləşdirir.Periodik olaraq ilin əvvəlində qarşıda duran məqsədlərlə tanış olur və müvafiq tədbirlərdə və aktivliklərdə iştirak edir . Müşahidə üçün dərs otağında məktəb direkrorunu qəbul edir (həm formal,həm də xəbərdarsız müşahidə zamanı). Lazım gəldiyi hallarda məktəb direktoruna özünün şəxsi fəaliyyəti haqqında vacib olan məlumatları çatdırır.

Tələb edir və müəllimin fəaliyyətinin özünüqiymətləndirməsi və peşəkar inkişaf məqsədi ilə müəllimin həyata keçirdiyi tədbirlərlə diqqətlə tanış olur.	Müəllimin qiymətləndirilməsi rubrikasına əsasən özünün fəaliyyətin obyektiv və səmimi qiymətləndirir.Özünü qiymətləndirmə formasını hazırlayır ,orada şəxsi nailiyyətlərini,peşəkar inkişaf üçün həyata keçirdiyi aktivlikləri və gələcək inkişaf ehtiyaclarını qeyd edir .
İl ərzində toplanmış məlumatları analiz və bir-biri ilə müqayisə edir: dərslərdə iştirakın hesabatlarını,müəllimin peşəkar şəraitdə müşahidəsinin qeydlərini,müəllimin portfolyosunu ,müəllimin özünü qiymətləndirməsini.Müəllimə şəxsi fəaliyyəti barəsində əlavə qeydlər deməyə imkan verir. Bütün göstəriciləri və məlumatları nəzərə almaqla müəllimin fəaliyyətini qiymətləndirmə rubrikasının hər bir istiqaməti əsasında obyektiv qiymətləndirir.Müəllimlə əməkdaşlıq etməklə gələn ilin peşəkar üstünlüklərini müəyyənləşdirir.Müəllimlərin qiymətləndirilməsinin yekun hesabatını hazırlayır və müəllimləri tanış edir.	Açıq və səmimi şəkildə şəxsi nailiyyətlərini məktəbin direktoru ilə müzakirə edir və onunla əməkdaşlıq edərək gələn ilin peşəkar inkişafının üstünlüklərini müəyyənləşdirir.Məktəb direktorunun hazırladığı hesabatla diqqətlə tanış olur və analiz edir.

Fəsil 3. Məlumatların toplanması strategiyaları və alətləri

3.1. Əsas strtegiyaların icmalı

Müəllimlərin qiymətləndirməsi nəzərdə tutur ki,hər dərs ilinin sonunda qiymətləndirici aşağıdakı suala cavab versin : müəllimin fəaliyyəti əsas- müəllimin peşəkar standartı və müəllimin fəaliyyətinin qiymətləndirilməsi rubrikası ilə müəyyənləşdirilən- istiqamət üzrə nə qədər effektiv olmuşdur ? Qiymətləndiricinin belə vacib suala cavab verə bilməsi üçün o,gərək başqa –başqa strategiyaları tətbiq etməklə müvafiq məlumatlar toplasın:

- Müəllimin dərsini müşahidə etmək və əks-əlaqə(formal-rəsmi və xəbərdarlıqsız müşahidə);
- Müəllimlərin tədris qruplarında və başqa peşəkar mühitdə müşahidəsi ;
- Müəllimin portfolyosunun analizi –orada həm müəllimin,həm də şagirdlərin işləri və onların nətisələri saxlanılır.

3.2. Dərsin müşahidəsi və əks əlaqə

Dərsləri müşahidə etmənin məqsədi müəllimin tədris və qiymətləndirmə praktikası haqqında məlumatların toplanmasıdır.Müşahidə zamanı qiymətləndirici həm müəllimin praktikasını,həm də aşağıdakı əsas istiqamətlər üzrə şagirdlərin verdikləri cavabları müşahidə etməlidir:

(1) **Dərsin planlaşdırılması:** Müəllim dərsi planlaşdırıbdır ,ya yox ? Dərsin məqsədi,gözlənilən nəticələr, tədrisin və qiymətləndirmənin strategiyaları işlənib müəyyənləşdirilibdirmi?Dərs üçün vacib olan tədris resursları əvvəlcədən hazırlanıbdırmı?

(2) **Məktəb otağındakı fiziki şərait:** Sinif mühiti necə təşkil edilibdir?Sinif otağı səliqə-səhmana salınıbdırmı? Partalar necə düzülübdür? Hansı əyani vasitələrdən istifadə edilmişdir? Müəllim hansı tədris resurslarından istifadə edir? Sinif mühitinin hansı elementi sinif otağında aktiv təlim –tədris prosesi getdiyini təsdiq edir? Sinfin mühiti və resurslar dərsin məqsədinə uyğun gəlirdimi?

(3) **Sinif otağındakı ictimai –psixoloji mühit :** Müəllim şagirdə hörmətləmi yanaşır? Müəllimin şagirdlər haqqında nə kimi gözləntiləri vardır? Şagirdlər öz düşüncələrin tam ifadə edə bilirlərmi?

(4) **Şagirdlərin dərsə cəlb edilməsi** : Dərsin mövzusu şagirdləri maraqlandırırmı? Dərs prosesində bütün şagirdlər iştirak edirmi ? Müəllim şagirdlərə qarşı fərdi diqqət etmək bacarığını göstərirmi? Müəllim şagirdləri dərsə cəlb etmək qayğısına qlmaq məqsədi ilə müxtəlif formalı strtegiyalardan istifadə edirmi?

(5) **Sinfin idarə edilməsi :** Sinifdə tədris üçün əlverişli şərait vardırmı? Sinifdə razılaşmış davranış qaydalarının olması hiss edilirmi? Şagirdlər qaydaların gözlənilməsi qayğısına qalırlarmı?Müəllimlər şagirdlərin arzuolunmaz davranışların görməzdən gəlir,yaxud vaxtında qarşısını alırmı?

(6) **Tədris və qiymətləndirmə:** Müəllim nəyi və niyə öyrətdiyini bilirmi ?Müəllim dərsin məqsədlərinə müvafiq olan akyivliklərdən istifadə edirmi ? Müəllim şagirdlərin ehtiyaclarını və hazırlıqlığını nəzərə alırmı? Müəllim şagirdlər tərəfindən tədris mövzusunun mənimsənilməsini qiymətləəndirirmi ? Müəllim şagirdlərin yüksək təfəkkür qabiliyyətlərinin inkişaf etdirilməsinin qayğısına qalırmi?

Dərslərdə iştirak etmək məqsədləindən irəli gələrək, qiymətləndirici müxtəlif müşahidə formasından isrifadə edə bilər.Xüsusən,müşahidə forması ümumi ,yaxud konkret sinifdə \siniflərdə konkret mövzunun tədrisinə hədəflənmiş ola bilər. Əlavədə dərslərin müşahidəsinin həm ümumi forması,həm də ibtidai siniflərdə oxu və riyaziyyat dərslərinin müşahidə formaları təqdim edilmişdir.

Tövsiyyə olunur ki,qiymətləndirici il ərzində hər bir müəllimin bir neçə dəfə iştirak etsin .O,formal müşahidə adlandırılan müşahidədən istifadə edə bilər ki,bu müşahidə əvvəlcədən müəllimlə razılaşdırılmış olur və bütün 45 dəqiqə müddətində davam edir. Həmçinin arzu olunandır ki, tədris ili ərzində direktor bir neçə dəfə xəbərdarlıqsız adlandırılan müşahidədən istifadə etməklə dərslərdə iştirak etsin ,bu müşahidə 10-15 dəqiqə və yaxud bütün dərs müddəti ərzində davam edə bilər.Dördüncü cədvəldə formal və xəbərdarlıqsız adlandırılan müşahidə haqqında məlumatlar təqdim edilmişdir.

Formal adlandırılan müşahidədən əvvəl qiymətləndirici əvvəlcədən müəllimlə görüşməlidir və dərslə bağlı olan məsələləri onunla müzakirə etməlidir:

- **Məzmun :** Şagitdlər nəyi öyrənirlər?
- **Proses :** Proses necə idarə edlir? Hansı metodlar və aktivliklər tətbiq edildi? Hansı resurslardan istifadə edildi?
- **Şagirdlərin xüsusiyyətləri** : Şagirdin ümumi akademik vəziyyəti necədir? Onların güclü və zəif tərəfləri nədir? Sinifdə xüsusi ehtiyacları olan şagirdlər vardırmı?
- **Qiymətləndirmə :** Müəllim şagirdlərin nə öyrəndiyini necə anlayacaqdır ?
- **Dərsdə iştirakın fokusu:** Direktor nəyə diqqət edəcəkdir?

Cədvəl 4. Formal və xəbərdarlıqsız görüşlər

	Formal	Xəbərdarlıqsız
Məqsəd	Müəllimin tədrisinin monitorinqi və qiymətləndirmə	
	Fokus: Müəllimin ümumi bacarığı və hazırlığı	Fokus : Müəllimin gündəlik praktikası
Müddət	45 dəq.	10-15 dəq.
Tezlik	Heç olmazsa ,ən azı ildə bir dəfə	İl ərzində bir neçə dəfə
Dərsdə iştirak haqqında məlumat	Dərsdə iştirak etmək və onunla bağlı olan məlumatlar müəllimlə razılaşdırılmışdır .	Müəllimin dərsdə iştirak haqqında əvvəlcədən heç bir məlumatı yoxdur.
Şou effekti	Mümkündür,çünki müəllim bilir ki,dərsdə nə zaman iştirak ediləcək və ola bilər ki, dərs üçün əvvəlcədən fövqəladə hazırlaşmış olsun.	Az ehyimal vardır, çünki müəllim bilmir ki,dərsdə nə zaman iştirak edcəklər.
Müəllimlərin seçilməsi	Bərabər (xüsusi hallardan başqa)	
Məlumatların toplanması	Əvvəlcədən işlənib hazırlanmış müşahidə forması əsasında	Ümumi sxem əsasında
Dərsin konteksti haqqında məlumt	Tam (illik plan haqqında ,şagirdlərin hazırlığı və başqa)	Ümumi məlumat
Müşahidənin tsikli	Əvvəlcədən görüş + dərsdə iştirak etmə + dərsdə iştirak etmədən sonrakı görüş	dərsdə iştirak etmə + dərsdə iştirak etmədən sonrakı görüş

Həm formal, həm də xəbərdarlıqsız müşahidədən sonra müəllimlərlə görüş vacibdir.Bu görüş müəllimə vaxtında bilsin ki, qiymətləndiricinin onun fəaliyyəti haqqında nə fikirləşir, tədrisin pozitiv tərəflərini daha artıq gücləndirsin və zəif tərəflərin yaxşılaşdırılması üzərində işləsin . Əks -əlaqə görüşü aşağıdakı əsas məsələlərdən ibarət olmalıdır:

- **Müəllimin refleksiyası:** Müəllimin tədris etdiyi dərs necə ? Əgər dərsi yenidən keçsə idi , nəyi fərqli olaraq edərdi? Müəllim nəyi dərsinin güclü tərəfi hesab edir?

- **Direktorun əks-əlaqəsi:** Dərsin iki güclü tərəfi nədən ibarətdir? Dərsin iki zəif tərəfi nədən ibarətdir ki,müəllim onun düzəldilməsi üzərində işləməyi davam etdirməlidir?
- **Dəqiqləşdirici suallar:** Tədris günü müəllim bu və ya digər qərarları niyə qəbul etdi ?Nə baş verdi və niyə baş verdi?
- **Gələcək planlar:** Tədris praktikasının yaxşılaşdırılması üçün müəllim nə etməlidir? Gələcək iştirak zamanı müəllim və direktor nəyə diqqət etməlidirlər?

Yuxarıda qeyd edildiyi kimi,formal müşahidə zamanı , arzu olunandır ki,qiymətləndirici ona mövzu haqqında vacib olan bütün məlumatları toplamağa yardımçı olan müşahidə formasından istifadə etsin.Müşahidə formaları müşahidənin fokusundan asılı olaraq fərqlənirlər.Beşinci və altıncı əlavədə müşahidə formaları verilmişdir,onların fokusu müəllimlər tərəfindən ibtidai siniflərdə oxu və riyaziyyat dərsinin üçfazalı modelinin və inkişafetdirici qiymətləndirmə metodunun tətbiq edilməsidir.Yeddinci əlavədə təqdim edilən müşahidə forması isə dərsə aid olan müxtəlif əhəmiyyətli məsələlərdən-suallardan ibarətdir:tədrisin strategiyaları,sinfin idarə edilməsi, qiymətləndirmə və sair.Qiymətləndirici müşahidənin fokusundan asılı olaraq özü müşahidə formasını seçə və tətbiq edə bilər.

3.3. Müəllimlərin tədris qruplarında və başqa peşə mühitində müşahidəsi

Müəllim haqqında mükəmməl məlumat əldə etmək üçün vacibdir ki, qiymətləndirici müəllimin fəaliyyətini müəllimlərin tədris qruplarında, pedaqoji şuranın və metodbirləşmə kafedralarının görüşündə,valideynlərlə görüş,həmkarları ilə münasibəti zamanı ,məktəb tədbirləri və sair müşahidə etsin.Peşə şəraitində müşahidə zamanı qiymətləndirici aşağıdakı məlumatları toplamalıdır:

- Müəllim peşəkarlığın inkişaf etdirilməsi aktivliklərində iştirak edirmi? O,hansı formalı aktivliklərdə iştirak edir? Müəllim neçə görüşdə iştirak edibdir?

- Müəllim görüşlərin aktiv idarə olunmasına yardım edirmi?
- Müəllim öz tədris təcrübəsini və çətinliklərini həmkarları ilə paylaşırmı? Onlardan faydalı məlumatlar almağa və tətbiq etməyə cəhd edirmi?
- Müəllim həmkarları ilə əməkdaşlıq zamanı əldə etdiyi məlumatları tədris prosesinə tətbiq edir,ya yox?
- Həmkarları ilə əməkdaşlığı zamanı müəllim konstruktivdirmi?Müəllim həmkarlarının fərqli düşüncələrinə və görüşlərinə hörmət edir,ya yox? Və sair.

3.4. Müəllimin portfolyosunun analizi

Müəllimin portfolyosu rəngarəng sənədlərin toplusu olub,müəllimin tədris praktikasını ,peşəkar inkişafını və şagirdlərin tədris prosesin və nəticələrini təsvir edir. Portfolyo müəllimə şəxsi praktikasına refleksiyada yardım edəcəkdir.Həmçinin,müəllimin portfolyosu ilə tanış olmaqla direkror müəllimin qiymətləndirilməsi üçün əhəmiyyətli olan məlumatlar tapa bilər və analiz edə bilər .

Direktor portfolyo ilə tanış olmaqla üç cür məlumatı analiz edə bilər ki ,o da gərək müəllimin qiymətləndirmə rubrikasına müvafiq olmalıdır : (a) Müəllimin tədrisini və qiymətləndirilməsini təsvir edən material; (b) Şagirdlərin təhsilini və qiymətləndirilməsini təsvir edən material; (c) Peşəkar inkişaf aktivliklərdə iştirak etməni təsvir edən material.İkinci şəkildə müəllimin qiymətləndirilməsi zamanı direktorun analiz edə biləcəyi sənədlər təqdim edilmişdir.

Şəkil 2. Müəllimin portfilyocunun strukturası



Mənbə: Məktəb bazasında müəllimlərin peşəkar inkişafı. (2014). Tbilisi: Müəllimlərin Peşəkar Təkmilləşdirilməsinin Milli mərkəzi

Əlavələr

Əlavə 1. Müəllimlərin qiymətləndirilməsi rubrikası

I.Tədris prosesinin planlaşdırılması: Müəllim standartlara uyğun olaraq illik və tematik mövzuların planlaşdırılmasını işləyib hazırlamaqla, uyğun olan dərsləri planlaşdırmaqla, ölçülmüş tədris məqsədlərini müəyyələşdirməklə hər bir şagirdin tədrisinə və inkişafına yardım edir.				
	Çox effektiv (4)	**Effektiv (3)**	**Yaxşılaşdırmağa ehtiyacı vardır(2)**	**Standartı təmin etmir (1)**
Peşəkar bilik	Fənnin ekspertidir. Şagirdlərin inkişafı və təhsil xüsusiyyətləri haqqında ən müasir elmi məlumatları bilir	Fənni mükəmməl bilir. Şagirdlərin inkişafı və təhsil xüsusiyyətləri sahəsində kompotentlidir.	Fənni yarımçıq bilir. Şagirdlərin inkişafı və təhsil xüsusiyyətləri haqqında müəyyən biliklərə malikdir.	Fənni zəif bilir. Şagirdlərin inkişafı və təhsil xüsusiyyətləri haqqında cüzi biliklərə malikdir.
Fənn standartlarının nəzərə alınması	Fənnin tədrisinin ətraflı tədris planı vardır,o fənn standartına uyğundur və şagirdlərin standartın öhtəsindən müvəffəqiyyətlə gəlməsi qayğısına qalır.	Tədris ilini fənn standartlarını nəzərə almaqla planlaşdırır .	Tədris ilini planlaşdırarkən fənn standartlarının tələbatlarının müəyyən hissəsini nəzərə alır.	Fənn standartının sənədləri ilə azacıq tanışdır.Əvvəlcədən işlənib hazırlanmış illik planı yoxdur.
Tematik dərslərin planlaşdırılması	Tematik tədris planlarını işləyib hazırlayır, bu plan fənn standartına müvafiq olan əsas məqsəddən ibarətdir,müvafiq tədris məsələlərindən və Blum taksonomiyasının nəzərdə tutduğu müxtəlif səviyyəli qabiliyyətlərdən ibarətdir.	Tematik tədris planlarını işləyib hazırlayır, bu planın çox hissəsi fənn standartına müvafiq olan əsas tədris məqsədlərindən ibarətdir, müvafiq tədris məsələlərindən və Blum taksonomiyasının nəzərdə tutduğu başqa-başqa səviyyəli qabiliyyətlərdən ibarətdir.	Tematik tədris planlarını işləyib hazırlayır, bu planın müəyyən hissəsi fənn standartına müvafiq olan əsas tədris məqsədlərinə uyğundur və yüksək təfəkkür qabiliyyətlərini nəzərdə tutur .	Tematik tədris planlarını işləyib hazırlamayıbdır.Fənnin tədrisinin fənn standartlarını nəzərə almadan və əsas tədris məqsədlərini müəyyənləşdirmədən epizodoik planlaşdırır .

Qiymətləndirmənin planlaşdırılması	Şagirdlərin tədrisinin monitorinqi məqsədi ilə diaqnostik,sinif, aralıq və yekunlaşdırıcı qiymətləndirmələri hazırlayır.	Şagirdlərin tədrisinin nəticələrini ölçmək məqsədi ilə sinif və tematik qiymətləndirmə planlaşdırır.	Tədrisin gedişi zamanı tematik qiymətləndirmədən istifadə edir.	Yekunlaşdırıcı testi keçirilməzdən əvvəl hazırlayır.
Çətinliklərin əvvəlcədən müəyyənləşdirilməsi	Şagirdlər üçün çətin və çaşdırıcı məsələləri əvvəlcədən müəyyənləşdirir və onların öhdəsindən gəlmək uşun vacib olan rəngarəng strategiyalar işləyib hazırlayır.	Şagirdlər üçün çətin və çaşdırıcı məsələləri əvvəlcədən müəyyənləşdirir və onların öhdəsindən gəlmək uşun vacib olan strategiyalar işləyib hazırlayır.	Tədris prosesi zamanı şagirdlərin rastlaşacağı bir neçə xarakterik çətinlik haqqında məlumatı vardır.	Dərsi şagirdlər üçün çətin ola biləcək və çaşdırıcı məsələləri nəzərə almadan planlaşdırır .
Dərsin planlaşdırılması	Hər bir dərsi aydın,ölçulə bilən və nail oluna biləcək məqsədlərlə planlaşdırır,onlar fənn standartı və tematik tədris planı ilə uyğundur .	Hər bir dərsi aydın,ölçulə bilən və nail oluna biləcək məqsədlərlə planlaşdırır ,onlar tematik tədris planına uyğundur .	Dərsləri fənnin ümumi məqsədlərinin müəyyən hissəsini nəzərə almaqla planlaşdırır.	Dərsləri elə planlaşdırır ki,onların məqsədi dərslikdə təqdim edilmiş mövzuların üzərinin örtülməsidir.
Şagirdlərin dərsə cəlb edilməsi	Relevant dərslər planlaşdırır,onlar hər bir şagirdin maraqlarını və ehtiyaclarını nəzərə alır və şagirdləri aktiv tədris prosesinə qoşur .	Relevant dərslər planlaşdırır , onlar şagirdlərin əksəriyyətinin maraqlarını və ehtiyaclarını nəzərə alır və şagirdləri aktiv tədris prosesinə qoşur.	Dərsləri elə planlaşdırır ki,onlar şagirdlərin müəyyən hissəsinin maraqlarına və dərsə cəlb edilməsinə oriyentasiya olunub.	Dərsləri elə planlaşdırır ki,onlar şagirdlərin maraqlarına və dərsə cəlb edilməsinə oriyentasiya olunmayıb.
Resursların tətbiqi	Dərsləri elə planlaşdırır ki,onlar yüksək keyfiyyətli multi mədəni tədris materialların və texnologiyaların tətbiqini nəzərdə tutur.	Dərsləri elə planlaşdırır ki,onlar müvafiq keyfiyyətli multi mədəni tədris materialların və texnologiyaların tətbiqini nəzərdə tutur.	Dərsləri elə planlaşdırır ki,onlar yaxşı və orta keyfiyyətli tədris materiallarının tətbiqini nəzərdə tutur.	Dərsləri elə planlaşdırır ki,onlar orta və aşağı keyfiyyətli tədris materiallarının tətbiqini nəzərdə tutur.

Tədrisin diferensiasiyası	Elə aktivliklər planlaşdırır ki,onlar şagirdlərin tədris ehtiyaclarını, üslubunu və maraqlarını nəzərdə tutur .	Elə aktivliklər planlaşdırır ki,onlar şagirdlərin müəyyən hissəsinin tədris ehtiyaclarını, üslubunu və maraqlarını nəzərdə tutur .	Dərsi planlaşdıran zaman şafirdlərin xüsusi ehtiyaclarını minimum nəzərdə tutur .	Dərsi planlaşdıran zaman diferensiasiya elementlərindən istifadə etmir.
